**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# S Ə R Ə N C A M

**Naxçıvan Muxtar Respublikasının 2023-cü il dövlət büdcəsi layihəsinin, muxtar respublikanın iqtisadi və sosial proqnoz göstəricilərinin, investisiya proqramının istiqamətlər üzrə layihəsinin hazırlanması barədə**

Naxçıvan Muxtar Respublikasının 2023-cü il dövlət büdcəsi layihəsinin, muxtar respublikanın iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin, investisiya proqramının istiqamətlər üzrə layihəsinin hazırlanaraq aidiyyəti üzrə vaxtında təqdim edilməsi məqsədilə:

1. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi muxtar respublikanın növbəti büdcə ili üzrə dövlət büdcəsinin layihəsini və sonrakı üç il üçün dövlət büdcəsi göstəricilərini, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi muxtar respublikanın növbəti büdcə ili və gələn üç il üzrə sosial-iqtisadi proqnoz göstəricilərini, investisiya proqramının istiqamətlər üzrə layihəsini 2022-ci il iyunun 25-dək hazırlayıb Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər.

2. Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi:

2.1. cari il üçün muxtar respublikanın ortamüddətli iqtisadi və sosial inkişaf proqramını dəqiqləşdirmək məqsədilə 2021-ci ilin ilkin statistik məlumatlarını 2022-ci il fevralın 20-dək Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə və Maliyyə Nazirliyinə təqdim etsin;

2.2. növbəti büdcə ili və gələn üç il üçün muxtar respublikanın iqtisadi və sosial inkişaf konsepsiyasının və dövlət büdcəsi layihəsinin hazırlanması

üçün zəruri statistik məlumatların Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə, Maliyyə Nazirliyinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidmətinə və digər əlaqədar təşkilatlara təqdim edilməsini təmin etsin.

3. Dövlət büdcəsi gəlirlərinin icrasını təmin edən orqanlar, nazirliklər, komitələr və dövlət büdcəsindən maliyyələşən, maliyyə yardımı alan digər təşkilatlar növbəti büdcə ili və sonrakı üç il üçün büdcə layihələrini tərtib edib 2022-ci il iyunun 20-dək Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər.

4. Naxçıvan Muxtar Respublikasının nazirliklərinə, komitələrinə və təşkilatlarına, səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərinin rəhbərlərinə, rayon (şəhər) icra hakimiyyəti orqanlarına tapşırılsın və bələdiyyələrə tövsiyə edilsin ki, 2023-cü il və sonrakı üç il üzrə dövlət investisiya proqramının layihəsini hazırlamaq üçün müvafiq məlumatları və sənədləri 2022-ci il iyunun 20-dək Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər.

5. Naxçıvan Muxtar Respublikasının nazirliklərinə, komitələrinə, idarələrinə və təşkilatlarına, rayon (şəhər) icra hakimiyyəti orqanlarına tapşırılsın və bələdiyyələrə tövsiyə edilsin ki, lazım olan materialları iqtisadiyyatın müvafiq sahələrinin inkişafının təhlili əsasında növbəti büdcə ili və gələn üç il üçün muxtar respublikanın sosial-iqtisadi inkişaf konsepsiyasını və proqnoz göstəricilərini hazırlamaq üçün 2022-ci il iyunun 20-dək Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər.

6. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu müvafiq olaraq dövlət sosial müdafiə fondu və işsizlikdən sığorta fondunun növbəti büdcə ili və gələn üç il üçün öz büdcə layihələrini 2022-ci il iyunun 20-dək aidiyyəti üzrə təqdim etsinlər.

7. Naxçıvan Muxtar Respublikasının Avtomobil Yolları Dövlət Agentliyi “Avtomobil Yolları” Məqsədli Büdcə Fondunun növbəti büdcə ili və gələn üç il üçün büdcə layihələrini 2022-ci il iyunun 20-dək Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

8. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi dövlət əmlakının və dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmaların proqnoz göstəricilərini 2022-ci il iyunun 20-dək Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər.

9. Dövlət büdcəsi gəlirlərinin icrasını təmin edən orqanlar, nazirliklər, komitələr və dövlət büdcəsindən maliyyələşən, maliyyə yardımı alan digər təşkilatlar növbəti büdcə ili və sonrakı üç il üçün büdcə layihələrini tərtib edərkən qanunvericiliyə uyğun olaraq bu Sərəncamdan irəli gələn digər vəzifələri müəyyən olunmuş icra müddətlərində yerinə yetirilməsini təmin etsinlər.

10. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, 7 fevral 2022-ci il

№ 11s